*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 oktyabr 2020-ci il № 72 (2490) Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 5 kəndini, Zəngilan rayonunun Mincivan qəsəbəsini və 13 kəndini işğaldan azad edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də özünün rəsmi "Twitter" səhifəsində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.*

Dövlətimizin başçısı rəşadətli Azərbaycan Ordusunun aşağıdakı yaşayış məntəqələrinin azad etdiyini bildirib:

**Füzuli rayonu:** Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri.

**Cəbrayıl rayonu:** Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri.

**Zəngilan rayonu:** Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri.

Eşq olsun, Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

## Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı oktyabrın 20-də rəsmi "İnstagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır



Sentyabrın 27-də Ermənistanın Azərbaycana hücumlarına qarşı əks-hücum əməliyyatı başladı. Düşmənin hücumunun qarşısı qətiyyətlə alındı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı torpaqlarımızı işğaldan azad edəcək döyüşlər kimi davam etdirilir. Azərbaycan Ordusu qətiyyətiylə, döyüş və mənəvi-psixoloji hazırlığıyla düşmənin illərlə möhkəmləndirdiyi müdafiə qurğularını darmadağın etdi. Bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq təşkilatların həll edə bilmədiyi, bəlkə də biganəliklə, qərəzliklə həll etmək istəmədiyi münaqişənin qətiyyətlə həllidir. Azərbaycan Ordusu bu münaqişənin hərbi yolla həlli olduğunu beynəlxalq təşkilatların protokoluna hopdurdu. Azərbaycan Ordusunun döyüşləri işğalçı dövlətin də, onun açıq havadarlarının da ümidini alt-üst etdi. Türk şairi Tofik Fikrətin ruhumuzun şeirlərindən olan bir şeirinin iki misrasını atdığı mərmilərlə düşmənin başına əlİdi: Zülmün topu var, gülləsi var, qələsi varsa, Haqqın da yenilməz qolu, dönməz üzü vardır.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır



(Əvvəli 1-ci səhifədə)

Bu, Vətən müharibəsidi. Kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbələrlə davam etdirir. Minlərlə gənc döyüşlərə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdi. Siyəzəndən 10 yaşlı məktəblinin Müdafiə nazirinə müraciəti daha duyğusal, daha düşündürücü müraciət idi. Bu yaşda uşaqların Vətən müharibəsində iştirak istəyi də ordu ilə xalqın birliyinin təntənəsi kimi yaşanıldı. Minlərlə vətəndaş orduya mənəvi dəstək olur.

Ezamiyyətə gedəndə küçələrdə xalqın hərbi maşınlara, hərbçilərə hərarətli münasibəti görənləri duyğulandırırdı. Yol kənarında çörək bişirən ananın göz yaşları içində əsgərlərə isti çörək təklifini də Vətən müharibəsində qələbəyə xidmət məqamı bildik...

Döyüşlərdə ağır itkilərə məruz qalan Ermənistan yenə havadarlarına müraciət etdi, Azərbaycanın atəşi dayandırması üçün "dil tökdü". Moskvada humanitar atəşkəs haqqında sənəd imzalandı. Sənəd imzalanan günün gecəsi Ermənistan Gəncəyə raket zərbəsi endirdi. Bu fakt Ermənistanın riyakarlığının, işğalçı dövlət olduğunun, işğal etdiyi torpaqlardan çıxmaq istəmədiyinin təsdiqi kimi anlaşıldı. Azərbaycan Ordusu düşmənin riyakarlığını döyüşlə, qətiyyətli azərbaycançılıq döyüşləriylə ödətdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın müxtəlif telekanallarına müsahibələrində münaqişənin mahiyyəti, sülh yolu ilə həlli istiqamətində səylər, işğalçı dövlətin danışıqlardan yayınması, dövlət sərhədlərini pozmaq cəhdləri və s. haqqında ətraflı məlumat verdi. Dünya ictimaiyyəti Azərbaycan Prezidentinin qətiyyətini gördü, dövlətə, dövlətçiliyə, azərbaycançılığa sədaqətini gördü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də xalqa müraciətində dedi: "İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər, əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil...". Bu şərt işğalı sonlandırma şərtidir. Bəşəri dövlətlər bu şərti tarixi ədalətin, haqqın şərti bildilər. Ancaq dövlət siyasətinin mahiyyəti işğalçılığa meyil, terrora meyil, özgə ərazilərinə meyil olan bir dövlətin belə bir şərtə əməl edəcəyinə inanmadılar. Çünki bu şərt onun illərlə yaşatdığı xülyanın sonu deməkdir. Azərbaycan isə Ali Baş Komandanın sərkərdəliyi ilə məhz bu son üçün Vətən müharibəsindədi.

Xudafərin körpüsü işğaldan azad edildikdən sonra gizir Rauf Əliyev "Hər birimizin istəyini, niyyətini hərbi xidmət ümumiləşdirir. Hamımız Ali Baş Komandanın əmriylə döyüşmək, torpaqlarımızı azad etmək niyyətiylə xidmət etmişik. Döyüşlər başladı. Əks-hücum əməliyyatı kimi davam edən döyüşlərin iştirakçısı olmaq mənim hərbçi taleyimin uğurudu. Döyüşürük, Ali Baş Komandanın dediyi kimi: "Torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik. Suqovuşanın, Cəbrayılın, Füzulinin, Xudafərinin sevinci Böyük Qələbənin sevincinin başlanğıcıdı", - demişdi. Döyüşçünün səmimiyyətlə dediklərini Azərbaycan Ordusunun bütün hərbi qulluqçularının döyüş andı bilmişdik. Bu and dövlətə sədaqət andıdı. Bu and hərbi andı nə gözəl tamamlayır!

Vətən müharibəsi tarixi müharibədi. Vətən müharibəsi vətənpərvərliyin işğalçılıqla döyüşüdü. Azərbaycan əsgəri döyüş-döyüş irəliləyir, yaşayış məntəqələrimizi ermənisizləşdirərək irəliləyir, düşməni çığnayıb keçərək irəliləyir - Şuşaya yaxınlaşır. Düşmən Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun kükrəyişindən qaçır. Azərbaycan əsgərinin döyüşü işğalı sonlandırmağa, Ermənistan əsgərinin döyüşü işğalı uzatmağa xidmət edir. İşğalçılıq heç zaman vətənpərvərliyə qalib gələ bilməz. Azərbaycanda heç qalib gələ bilməz! Ölkə başçısının xalqa müraciətlərində döyüşlərin xronikası da açıqlanır, döyüşlərin nəticələri də. Nəticələr qələbələrdir, Böyük Qələbənin tərkib hissələridir. Tapqaraqoyunlu kəndindən bir süjet göstərilirdi. Raket zərbəsindən ata-anasını, həyat yoldaşını, balasını itirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun ağrılar içində tam səmimiyyətlə dediyi kəlmələr mənim də könül mülkümü silkələdi, bu kəlmələri Vətən andı kimi dinlədim: "Vətən sağ olsun...". Bu kəlmələri şəhid analarından da eşitmişəm. Yəni, xalq üçün şəhidlik ucalığı da var, Vətən ucalığı da. Bütün ucalıqlardan Vətən ucalığı ucadı. Bu kəlmələr orduya inamdır, sərkərdəyə inamdır, orduya, sərkərdəyə inam torpaqlarımızın işğaldan azad ediləcəyinə inamdır. Vətən müharibəsi bu əminliyin müharibəsidi.

"Azərbaycan!" deyənlər də, "Can Azərbaycan!" deyənlər də Vətən müharibəsinin iştirakçılarına güvənir, inanır ki, Ali Baş Komandanın sərkərdəliyiylə bu döyüşlər Böyük Qələbəylə tamamlanacaq!..

Əks-hücum kimi başlayan Vətən müharibəsində xalqın dəstəyini görən, nəfəsini kürəyində hiss edən əsgərlərin qələbə ruhu döyüş-döyüş dönməzləşir. Ürəyi döyüşənlərin yanında olanların sayı xalqını, dövlətini sevənlərin, "Azərbaycan!", "Can Azərbaycan!" deyənlərin sayı qədərdi. Hamısı yaxşı bilir ki, Vətən müharibəsi Böyük Qələbə üçündü. Yəni, əsgər və zabitlərimiz hər döyüşü müharibənin son döyüşü bilib döyüşürlər.



Düşmən Azərbaycan Ordusundan qorxur, qorxduğuna görə, döyüşlərdən çəkindiyinə görə mülki əhali ilə döyüşür, həm də uzaqdan-uzağa. Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Xızıya, Qəbələyə, Kürdəmirə raketlər atır. Dünya dövlətləri buna ciddi münasibət göstərmək əvəzinə, atəşi dayandırmağı təklif edirlər. Bilmirlərmi ki, od düşdüyü yeri yandırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz" qətiyyətini unudublarmı? Onlar erməniliyə xidmət kimi unuda bilərlər, ancaq bunu nə Vətən müharibəsinin iştirakçıları unutmayıb, nə də onların yolunu davam etdirənlər də unutmayacaq. Bu qətiyyət əbədiliyin cığırdaşı olan qətiyyətdir.



Ermənistan Gəncəyə ikinci dəfə daha güclü dağıdıcı raket atdı. Əgər bu hərbi cinayət ilk dəfə törədiləndə dünya dövlətlərindən, beynəlxalq təşkilatlardan dünyəvi qınaq olsaydı, işğalçı dövlət buna ikinci dəfə cəsarət etməzdi. Bunu münaqişəni nizamlamaq dövləti missiyası olan dövlətlər də bilir. Analitiklərin, beynəlxalq hərbi ekspertlərin faşistlik adlandırdığı bu cinayətə görə Ermənistanın yaxasından "dördəlli yapışmaması" adamın gümanını min yerə çəkir.

Xarici dövlətlərin diplomatik korpusları Gəncədə oldu. Həlak olanları gördülər, məsum uşaqları gördülər, yaralananları gördülər, dağıntıları gördülər. Dağıntı içində müsahibə verənlər də oldu, bu hərbi cinayəti ciddiyyətlə pisləyənlər, işğalçı dövləti qınayanlar da. Aradan günlər keçib, bəs dünyanın çox böyük əksəriyyəti bu boyda faciəyə ciddi münasibət bildirməməsinə nə deyəsən?

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində dedi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik". Bu fikir müharibədə sərkərdənin döyüşçülərə inamıdır, ehtiramıdır. Bu inam, bu ehtiram qələbələrlə tamamlanır. AzTV-də bir subtitr gördüm: "Hədəfə doğru - Qarabağ Azərbaycandır". Bu fikir medianın, medianın timsalında ictimaiyyətin orduya, azərbaycançılığa söykənən bəşəri inamıdır.

Vətən müharibəsi başladığı gündən düşmənin 241 tankı, 50 PDM-i, özüyeriyən 17 artilleriya qurğusu, 198 topu, 58 minaatanı, 70 "Qrad" qurğusu, 2 "Uraqan"ı, 2 Yaylım Atəş Raket Sistemi, 1 TOS-u, 4 "S-300" zenit-raket kompleksi, 2 əməliyyat-taktiki raket kompleksi, 1 ballistik raketi və s. məhv edilib. Bu rəqəmlər Ermənistanın döyüş gücünün tükənməkdə olduğunun, bir neçə hərbi hissəsinin tamamilə məhv edilməsi ordusunun dağıldığının göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 6-da xalqa müraciətində dediyi fikirlər - "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik" - Azərbaycanın Vətən müharibəsində nə etməli olduğunu müəyyənləşdirən siyasi qətiyyətdir. Xalq bu qətiyyətin əsgəridi...

Döyüş bölgəsində ezamiyyətdə olanda bir az əvvəl mövqe döyüşündən qayıtmış əsgərlərimizin Dövlət bayrağımızı ucalıqda dalğalandırması, öpüb gözlərinin üstünə qoyması diqqətimi çəkmişdi. Zərbələriylə işğalın sonuncu döyüşünü tezləşdirən əsgərlərimizə demişdim ki, hər zərbəmiz düşmənin onsuz da zəif olan gücünü azaldır, yəni, düşmən hiss edir ki, dirənişinin sonudu, dirənişləri ölümlə nəticələnəcək. Qazanacağınız Böyük Qələbə təkcə bu işğalın deyil, Azərbaycan əsgəri, həm də düşmənin işğala meyilinin sonu olacaq. Bundan sonra düşmən gözucu da olsa, bu tərəflərə baxmağa cəsarət etməyəcək. Ölkə başçısının xalqa hər müraciətindən sonra mənə elə gəlir ki, əsgərlərimiz daha qətiyyətlə döyüşür...

Vətən müharibəsidi...

Ordu xalqın ordusudu, bu döyüş xalqın döyüşüdü, qələbələr xalqın qələbəsidi...

Azərbaycan Respublikası Prezidentinin xalqı Böyük Qələbə münasibətilə təbrik edəcəyi günün ərəfəsindəyik!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# “Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir”

*Ötən müddətdə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində əməliyyatlar davam edib. Düşmən müdafiə mövqelərimizi və Tərtər rayonunun ərazisini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub. Döyüş əməliyyatlarında cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində olan düşmən bölmələri artilleriya bölmələrimiz tərəfindən məhv edilib.*




AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 21-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, düşmənin 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarının və 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və döyüş texnikası sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib. Tərk edilmiş düşmən mövqeləri bölmələrimizin nəzarətindədir. Ordumuzun apardığı əməliyyatlarda alay komandiri, alayın artilleriya rəisi, tabor və divizion komandirləri daxil olmaqla, düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib. 3 artilleriya qurğusu, bir neçə minaatan və 3 yük avtomobili sıradan çıxarılıb. Çoxlu sayda silah-sursat bölmələrimiz tərəfindən ələ keçirilib. Əlavə olaraq, Gəncə, Goranboy, Tərtər, Füzuli və Horadiz istiqamətlərində düşmənin 6 pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir. Azərbaycan Ordusunun üstünlüyü barədə düşmənin bu gün etiraf etdiyi həqiqətləri Ali Baş Komandanımız bundan əvvəl vurğulayıb. Azərbaycan Ordusu istifadə etdiyi yüksək texnoloji vasitələrlə düşməni qat-qat üstələyib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi müasir ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusunun birlik və birləşmələrinə müasir hərbi strategiya və taktikaya, hərb elminə dərindən yiyələnmiş komandirlər rəhbərlik edirlər.

Ordumuzun arsenalında olan yüksək dəqiqlikli texnoloji vasitələr və silahlar genişmiqyaslı taktiki təlimlərdə tətbiq olunur, onların imkanlarının əməliyyatlarda birgə taktiki istifadəsi hərbi qulluqçularımız tərəfindən tam olaraq mənimsənilib.

Hazırda ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatında düşmənin 30 il müddətində qurduğu müdafiə xətti, onların silah və texnikası, cəlb etdikləri muzdlu döyüşçülərin döyüş təcrübəsi heç bir işə yaramır, onların idarəetmə sistemi iflic vəziyyətdədir. Onların bölmələri nizamsız qaydada döyüş meydanından geriyə çəkilir.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, Azərbaycan Ordusunun əsas dayağı güclü dövlət-xalq-ordu birliyidir. Azərbaycan əsgəri Ali Baş Komandanın hər çıxışından sonra daha da cəsarətlənir, irəli atılır, xalqımızın birliyindən və döyüş ruhundan mənəvi güc alır. Vahid komandanlıq altında idarə olunan Azərbaycan Ordusunun bütün bölmələri döyüş meydanında əsl peşəkarlıq, qəhrəmanlıq və böyük fədakarlıq nümayiş etdirir.

"Biz bu münasibətlə hər bir Azərbaycan vətəndaşına minnətdarlığımızı bildiririk. Bir daha əmin edirik ki, Ali Baş Komandanın əmrinə uyğun olaraq işğal altındakı bütün torpaqlarımız tezliklə azad ediləcək. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov bildirib.

# Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə artilleriya bölmələrimiz zərbələr endirir





***20 oktyabr 2020-ci il.***

Oktyabrın 20-də saat 17:00 radələrində Ermənistan ordusu tərəfindən Goranboy və Tərtər rayonlarının ərazisi raket-artilleriya atəşinə tutulub.

* * *

Oktyabrın 20-də axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

* * *

Oktyabrın 20-də saat 19.30 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində məhv edilib.

* * *

Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələri məhv edilib.

***21 oktyabr 2020-ci il.***

Oktyabrın 20-si gün ərzində və 21-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edilib.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilib.

6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var.

Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

* * *

Oktyabrın 21-də saat 12.00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilib.

* * *

Oktyabrın 21-i saat 12:55-dən 13:30-dək Ermənistan silahlı qüvvələrinə məxsus daha 3 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

PUA-dan 2-si cəbhənin Füzuli istiqamətində, 1-i isə Tərtər istiqamətində vurulub.

***22 oktyabr 2020-ci il.***

Oktyabrın 21-i gün ərzində və 22-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək vacib yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlı olması məlum olub.

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb.

Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki verib. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşüb, taborun qərargah rəisi isə məhv edilib. Yeraltı sığınacağın sıradan çıxarılması nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli itki olub.

543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanıb, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilib. 1-ci taborun bir bölüyünün şəxsi heyəti döyüşə girməkdən imtina edib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

* * *

Oktyabrın 22-də səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub.

Düşmən tərəfindən saat 07.00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09.00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılıb.

Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Düşmənin raket hücumu nəticəsində tələfat yoxdur.

* * *

Oktyabrın 22-də səhər saatlarında Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Düşmənə layiqli cavab veririk

*Bu gün Azərbaycan Ordusunun şəxsi heyəti ata-babalarımızdan bizə yadigar qalan Vətəni erməni hərbi birləşmələrindən azad etməklə, hərb tarixinin yeni səhifəsinin qızıl hərflərlə yazılmasına öz töhfəsini verir. Artıq Azərbaycan xalqının milli maraqları naminə Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut, Suqovuşan və onlarla yaşayış məntəqələrimiz azadlığına qovuşub. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan əsgəri xalqımıza sevinc bəxş etmək ərəfəsindədir. Döyüşlərdə qazanılan uğurlar qələbə ruhunun səviyyəsi kimi yaşanılır. Döyüşlərin iştirakçılarının təəssüratlarını dərc edirik.*

**"Azərbaycan Ordusu"**





**Zabit Elsevər Məmmədov:**

- Qarabağın həsrəti illərdir ki, bizi yandırır, ömrümüzün hər anında sağalmayan yara kimi qövr eləyirdi. İllərdir yurdumuza qovuşmaq eşqi ilə alışıb-yanırdıq. Xalqımız çoxdan tarixi torpaqlarımızın işğaldan azad olunmasının intizarında idi. Dövlət və ordu rəhbərliyi isə bu intizara son qoymaq məqsədilə xalqından güc alaraq düşmənin son təxribatına əks-hücum əməliyyatı ilə cavab verdi və bir sıra strateji yüksəklikləri və yaşayış məntəqələrimizi işğaldan azad etdi.

Bu gün Azərbaycan Ordusunun kadr resurslarının intellektual potensialının artırılması, strateji planda ordunun peşəkar hərbi qulluqçularla komplektləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji və əxlaqi keyfiyyətlərinin yüksəldilməsi, hərbi təlimlərin diqqət mərkəzində saxlanılması, həmçinin Aprel və Günnüt zəfərlərindən sonra son döyüşlərdə əldə etdiyimiz nailiyyətlər onu deməyə əsas verir ki, hicrana son qoymağa, vüsala qovuşmağa çox az qalıb. Xalq inanır ki, bu arzunu gerçəkləşdirəcək bir qüvvə varsa, o da Azərbaycan əsgəridir.

Ordumuz peşəkar bir səviyyədədir, artıq 90-cı illərin ordusu deyil. Daha Vətənimizin, torpağımızın vahid komandanlıq altında birləşən, müasir silahlarla təmin olunan və bu gün döyüş meydanında xarüqələr yaradan nizami bir ordusu var. Bu nizami ordunun arxasında ona öz misilsiz məhəbbətilə dəstək olan xalqımız dayanır. Hökumət, xalq, dövlət birliyi - bax, bu gördüyünüz qələbələrə imza atan əsgər və zabit heyətinə, o cümlədən bütövlükdə, ordumuza daim qol-qanad verir. Biz güclüyük. Təkcə silahsursatımızla, hərbi texnikamızla, mənəvi-psixoloji hazırlığımızla deyil, həm də haqqımızı tələb etməkdə, ədalətimizə güvənməkdə güclü və qüdrətliyik.

Ən böyük arzumuz Ali Baş Komandanımızın rəhbərliyi altında tezliklə işğal olunan torpaqlarımızın azad edilməsidir. Neçə illərdir ki, qəribsədiyimiz torpaqlar, zirvələr, yüksəkliklər üçrəngli bayrağımızın həsrətindədir. O həsrətə Azərbaycan əsgəri tezliklə son qoyacaq!

**Zabit Nuran Mirəli:**

- Vətənpərvərlik - Vətənini sevmək, Vətən üçün hər cür fədakarlığa hazır olmaqdır. Daim düşünmüşəm ki, hər bir dövlətin gələcəyi onun vətəndaşının öz ölkəsinə olan sədaqət borcunu layiqincə yerinə yetirməsindən asılıdır. Hər kəs öz sevgisiylə, məhəbbətiylə, varlığıyla Vətənini öz şəxsiyyətində, mənində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın.

Sentyabrın 27-də düşmənin hücumunun qarşısı alınıb, əks-həmlə əməliyyatı ilə Vətən müharibəsi başladığı andan etibarən qüdrətli ordumuz məkrli düşmənin arzularını gözündə qoymağa davam etməkdədir. Vətənimizin vətənpərvər, cəsur oğulları bu gün müqəddəs bir missiyanı yerinə yetirirlər. Onlar illərdir işğalda qalmış əzəli və əbədi torpaqlarımızı düşmən əsarətindən azad edərək xalqımızı Qələbə xəbərləri ilə müjdələyirlər. Hərb meydanında duruş gətirə bilməyən məkrli yağılar dinc əhalini hədəfə alaraq xalqımızın iradəsini, əzmini sınayırlar. Qəhrəman xalqımız isə düşmənin bu əməllərini onun acizliyi, son çırpınışları olaraq görür.

Bu savaşda biz haqqın tərəfdarıyıq. Əminəm ki, tezliklə müzəffər ordumuz ərazi bütövlüyümüzü bərpa edəcək. Ordumuzda, döyüşçülərimizdə çox böyük ruh yüksəkliyi var. Xalqımızdan aldığımız bu güc, bu inam Böyük Qələbə ilə sona çatacaq.

Biz zəfər qazanacağıq!

**Kiçik çavuş İsa Məmmədli:**

- Bu gün Vətənimiz imtahan qarşısındadır. Ali Baş Komanımızın rəhbərliyi ilə qüdrətli ordumuz bu imtahandan üzüağ çıxır və çıxacaq. Birliyə, həmrəyliyə, qardaşlığa, dostluğa rəvac verməliyik. Yoxsa şəhidlərimizin müqəddəs ruhları bizi bağışlamaz. Bunu bizdən Vətən tələb edir. Biz dildə yox, əməldə Vətəni, onun müqəddəs torpağını sevirik.

İnsan oğlu sevgi hissini dərk etdiyi andan Vətənin müqəddəsliyini anlayır və bu hisslərlə gələcək həyatının təməlini qoyur. Vətənpərvərlər öz həyatlarının mənasını Vətənə, torpağa xidmətdə görürlər. Bu müqəddəs peşəni seçənlər hər an Ali Baş Komandanın verəcəyi döyüş əmrini gözləyirdilər. Bu gün şanlı ordumuzun igid zabit və əsgərləri döyüşlərdə böyük hünər və rəşadət göstərirlər. Düşmənin silahlı birləşmələri igid oğullarımızın qəhrəmanlığı qarşısında duruş gətirə bilməyərək şərəf və ləyaqət simvolu olan döyüş bayraqlarını, silah və texnikalarını meydanda qoyaraq qaçırlar.



Rəşadətli ordumuz Böyük Qələbənin bir addımlığında olduğunu xalqımıza ard-arda verdiyi qələbə xəbərləri ilə müjdələyir. Ali Baş Komandanın rəhbərliyi ilə igid oğullarımız düşmənə döyüş meydanında göz açmağa imkan vermir. Qəsbkarları əzəli torpaqlarımızdan qovmaq, illərdir əsirlikdə olan torpaqlarımızı azad etmək bizim haqq işimizdir. Şanlı Ordumuz bu haqq savaşından Böyük Qələbə ilə çıxacaq. Haqq və ədalət bizim tərəfimizdədir! Qarabağ Azərbaycandır!

**Kiçik çavuş Elmar Hüseynov:**

- Müdriklərimiz çox gözəl deyib ki, Vətən həsrətini, ancaq onu yaşayanlar bilər. Vətən darda olanda onun harayına cəsur oğulları hay verir. Azərbaycan oğulları dünyanın harasında olmalarına baxmayaraq, ürəkləri Vətən eşqiylə döyünür. Bu günlərdə bir daha bunun canlı şahidi olduq. Xalqımın vətənpərvərlik ruhu çox yüksəkdir. Biz işğal olunan əzəli və əbədi torpaqlarımızı azad edib xalqımızı Böyük Qələbə ilə müjdələmək üçün döyüşürük. Bizim heç kəsin torpağında gözümüz yoxdur. Lakin Ali Baş Komandanımızın dediyi kimi: "Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın."

O torpaqlar Vətənimin dilbər guşəsinin bir parçasıdır. O yerdə torpağa tapşırılan əcdadlarımızın ruhu dolaşır. Artıq 30 ilə yaxındır ki, yurd-yuvalarımız, doğma ocaqlarımız düşmən əsarətindədir. Bu əsarəti sonlandırmaq, Vətən həsrəti ilə alışıb-yanan soydaşlarımızı doğma ocaqlarına qovuşdurmaq bizim ən müqəddəs vəzifəmizdir. Son qarış torpağımızı da düşməndən azad edənəcən döyüşləri davam etdirəcəyik.

Bizim savaşımız haqq savaşıdır. Tam əminliklə deyə bilərəm ki, biz bu haqq savaşından Ali Baş Komandanın rəhbərliyi ilə qələbəylə çıxacağıq. Qələbə bizimdir. Qarabağ Azərbaycandır!

**Əsgər Maşallah Qurbanlı:**

- Döyüşlər başlayan gündən ordumuzun düşmənə verdiyi adekvat cavabın nəticəsidir ki, qəsbkarlar böyük itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olurlar. Bu hücum hər an Ali Baş Komandanın döyüş əmrini gözləyənləri sevindirdi. Qüdrətli ordumuz qətiyyətlə, ruh yüksəkliyi ilə vuruşur və döyüşlərdə öz üstünlüyünü sübut edir. Bu döyüşlərin Azərbaycan Ordusunun şanlı hərb tarixində xüsusi yeri olacaq.

Əməliyyatlar zamanı düşmənin saysiz-hesabsız hərbi texnikası, canlı qüvvəsi məhv edilir. Ordumuzun əldə etdiyi uğurlar bizdə böyük ruh yüksəkliyi yaratdı. Aparılan uğurlu əməliyyatlar bizə bu döyüşlərin ərazi bütövlüyümüzün bərpası ilə başa çatacağını deməyə imkan verir. Əks-hücum əməliyyatı ordumuzun qələbəsi ilə başa çatacaq. Rəşadətli ordumuz buna tam qadirdir.

Bu savaşda biz haqq tərəfdarıyıq. Bizim heç kəsin torpağında gözümüz yoxdur. Lakin öz torpaqlarımızın da işğalda qalmasına razı olmayacağıq. Bizim savaşımız haqq savaşıdır və biz bu savaşdan alnıaçıq, üzüağ çıxacağıq. Bir qarış torpağımızı belə düşmən işğalında qoymayacağıq. Bizlər Ali Baş Komandanımızın da dediyi kimi, xilaskar əsgərlərik. "Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür". Biz bu yolda şəhid olur, yaralanır, torpaqlarımızı azad edirik.

Biz döyüşçülərin müstəqil, bütöv Azərbaycan uğrunda döyünən ürəkləri heç bir maneə durdura bilməz. Bir əsgər olaraq ən böyük arzum işğalda olan bütün torpaqlarımızı azad edəcək qalib ordunun sıralarında olmaqdır. Qələbə bizimlədir!

**Əsgər Elnur Əsgərov:**

- Sentyabrın 27-də erməni silahlı qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən yeni ərazilərimizi işğal etmək məqsədi ilə hərbi mövqelərimizi və yaşayış



məntəqələrimizi atəşə tutdu. Ordumuzun bölmələri düşmənin hücumunun qarşısını alaraq əks-hücum əməliyyatına başladı. Əminəm ki, bu əməliyyat işğalda olan torpaqlarımızın azad olunması ilə başa çatacaq. Ən müasir silah və texnikalarla təchiz olunan ordumuzun bölmələri düşməni əzəli və əbədi torpaqlarımızdan çıxarır, illərdir düşmən əsarətində olan doğma yurd-yuvalarımızı azad edirlər. Xalqımız ard-arda qələbə xəbərləri almaqdadır. Biz bu gücü, qüvvəti xalqımızın sevgisindən, inamından alırıq. Düşmən Azərbaycan əsgərinin döyüş hazırlığından, qələbə ruhundan qorxur. Döyüş meydanından geri çəkilən düşmən gücünü mulki əhalini atəşə tutmaqla sübut etməyə çalışır. Bu isə Ali Baş Komandanımızın da dediyi kimi: "Bu, müharibə cinayətidir və Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır". Düşünürəm ki, bütün bunlar cavabsız qalmayacaq. Tezliklə düşmən ölkəmizdə törətdiyi bu terror hadisələrinə görə layiqli cəzasını alacaqdır.

Biz öz torpaqlarımız uğrunda vuruşuruq. Döyüşlərdə şəhid olanların, burada olmaq istəyib də qanunların imkan verdiyi soydaşlarımızın da əvəzindən vuruşuruq. Sevdiklərimizi Böyük Qələbə xəbəri ilə müjdələyəcəyimiz günləri, anları yaşamaqdayıq. Biz qalib gələcəyik! Qalibiyyət Azərbaycan Ordusunundur.

**(Ardı 5-ci səhifədə)**

# Düşmənə layiqli cavab veririk

(Əvvəli 4-cü səhifədə)

**Zabit Qabil Talıbov:**
- Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Aprel döyüşləri, Günnüt zəfəri və son əks-hücum əməliyyatları da sübut edir ki, yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ordusu regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir.

Ulu Öndərin başlatdığı ordu quruculuğunu yeni keyfiyyət mərhələsinə yüksəldən Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılmasını uğurla təmin etdi. Görülən tədbirlər nəticəsində Azərbaycan Ordusunun müasir döyüş standartlarına uyğun modernləşməsi baş verdi. Ən yeni, dağıdıcı qüvvəyə malik silah və döyüş texnikaları ordumuzun arsenalına daxil edildi. Dünyanın ən güclü ordularında olan artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, toplar, taktiki raket və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatla-





rı Azərbaycanda qoşun növlərinin silahlanmasında yer aldı. Ən qabaqcıl ölkələrin istifadə etdiyi hava hücumundan müdafiə sistemləri ölkəmizin hava məkanını etibarlı şəkildə qorumağı təmin etdi. Bunun nəticəsidir ki, hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycan Ordusu illərdir işğalda olan Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərini, Hadrut, Mincivan qəsəbələrini, Suqovuşan, Talış və onun kimi onlarla yaşayış məntəqələrini azadlığına qovuşdurdu.

Sentyabrın 27-dən başlayan cəbhə xəttində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri Silahlı Qüvvələrimizin gücünün praktik təsdiqi oldu. Bu döyüşlər, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, yeni tarixi torpaqlarımızı işğaldan azad edək.

Sıralanan qələbələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu təsdiq edir. Bu döyüşlər bir daha dövlətimizin və ordumuzun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü təmin edəcəyini sübut edir.

İnanırıq ki, tezliklə ordumuz xalqımızın arzusunun həyata keçməsinin qarantı olacaq, Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edəcək və üçrəngli bayrağımız ata-baba yurdlarımızda dalğalanacaq. Bütün milli bayramlarımızı işğaldan azad olunacaq Dağlıq Qarabağımızda, Şuşada, Xankəndidə, Xocalıda və digər gözəl diyarlarımızda, ata-baba yurdlarımızda qeyd edəcəyik. Öz evlərindən zorla qovulmuş məcburi köçkün bacı və qardaşlarımız öz evlərində bayram süfrələrini quracaqlar. Tezliklə Qələbə münasibətilə saysız-hesabsız qurbanlar Cıdır düzündə kəsiləcək.

Bütün arzularımızı Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan əsgəri həyata keçirir. Azərbaycan əsgərinin sayəsində Qarabağımızın təhlükəsizliyi təmin edilir. Bu gün Azərbaycan əsgəri Qarabağda zəfər zəngi səsləndirir. Azərbaycan əsgəri ümidsizliyi coşğuya, uğursuzluğu zəfərə çevirir. Azərbaycan əsgəri Günəşin sehirli şəfəqləri kimi Qarabağdan doğur.

Qarabağa qalibiyyət yürüşün uğurlu olsun, Azərbaycan əsgəri!

**Zabit Şərəf Yusifli:**
- Azərbaycan Ordusunun şəxsi heyəti bu gün yüksək döyüş ruhu ilə müqəddəs amala çatmaq üçün gecə-gündüz düşmənə qarşı vuruşur. Bu dəfə "başından böyük işlər" görməyə çalışan düşmənin arzusu ürəyində qaldı. "Özünü itirən" düşmənin başı indi Azərbaycan əsgərinin ayağının altındadır, onun müqəddəratını Ali Baş Komandanın əmrinə hazır, xalqına daim sadiq olan Azərbaycan əsgəri həll etməkdədir. Düşmən törətdiyi əməllərlə günbəgün öz əcəlini daha da yaxınlaşdırır. Ölkə başçısının humanizmə dəstək məqsədilə razılıq verdiyi humanist atəşkəsə erməni qüvvələri təxribatla cavab verdi. Heç bir günahı olmayan, döyüş meydanından yüzlərlə kilometr aralıda yaşayan mülki insanlara qarşı törədilən terror aktları düşmənin xain xislətini göstərir. Baş verənlər bizim düşmənə olan nifrətimizi daha da artırır, qələbəmizi tezləşdirir. Bu gün düşmənin törətdiyi və ya törətməyə çalışdığı hər hansı təxribatın qarşısı qətiyyətlə alınır. Ordumuzun müxtəlif bölmələri tərəfindən onlara şiddətli və sarsıdıcı zərbələr endirilir, şəhidlərimizin qisası alınır. Düşmən bu gün öz havadarlarına güvənərək döyüşləri davam etdirsə də, məğlubiyyətdən qaça bilməyəcək. Lakin Azərbaycan əsgəri öz tarixi torpaqlarında vuruşaraq, beynəlxalq təşkilatların çoxdan həll edə bilmədiyi məsələni Ali Baş Komandanın döyüş əmri ilə həll edir. Eyni zamanda, düşməni məğlubiyyətə uğradaraq ədaləti də bərpa edir. Qəsbkarlar bilməlidirlər ki, torpaqlarımızdan çıxmasalar, Azərbaycan əsgəri onları tamamilə məhv edəcək. Əgər



riyakar düşmən öz çirkin əməllərindən üz döndərməsə, onların sonu daha da tezləşəcək.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Zəmanət Tağıyev:**
- Bu gün Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan əsgəri qızıl hərflərlə yeni tarix yazır. Törətdiyi vəhşiliklərlə terrorizmi dəstəkləyən, vandalizmə xidmət etməklə məşhurlaşan mənfur düşmən ordumuz tərəfindən, sözün həqiqi mənasında, darmadağın edilir. Döyüş meydanında komandir heyətimiz də, əsgərlər də böyük ruh yüksəkliyi ilə vuruşurlar. Xalqımızın bizə olan inamı, bizim Qələbəyə olan inamımıza təsir edən mühüm amil oldu. Artıq Azərbaycan əsgəri düşmənin qorxulu yuxusuna çevrilib. Bu döyüşlər təkcə xain düşmənə deyil, bütün dünyaya göstərdi ki, Azərbaycan əsgərinin döyüş hazırlığı, qələbə ruhu qarşısında heç bir qüvvə tab gətirə bilməz. Bir zamanlar işğalda olan ərazilərimizdə bu gün üçrəngli bayrağımız dalğalanır. Arzumuz yerdə qalan tarixi torpaqlarımızı da düşməndən təmizləməkdir. Hər birimiz bu arzuya çatmağımız üçün mətin addımlarla irəliləyirik. Azərbaycan əsgəri xalqın ümid yeri, Azərbaycan xalqı əsgərin ilham mənbəyidir. Bizi qələbələrə ruhlandıran amillər Ali Baş Komandanımızın bizə olan inamıdır, dəstəyidir. O, bir sərkərdə tək bu tarixi döyüşə rəhbərlik edir. Hər birimiz, başda Prezidentimiz olmaqla, Azərbaycan xalqının bizə olan etimadını doğrultmaq, bu Vətənə layiqli övlad olmaq üçün döyüşürük. Böyük Qələbəni təmin etmək üçün vaxtından, vədəsindən asılı olmayaraq hər birimizin istər döyüş aparmaq qabiliyyəti, istərsə də polad iradəsi vardır. Qoy Azərbaycan xalqı əmin olsun ki, Azərbaycan əsgəri anbaan onu müqəddəs günə yaxınlaşdırır.

**Əsgər Rəşad Nuriyev:**
- Bu döyüşlər Azərbaycan tarixinin şanlı və şərəfli səhifəsidir. Azərbaycan əsgəri ümdə vəzifəsini bu gün rəşadətlə yerinə yetirir. Bölməmizin döyüş ruhu yüksək səviyyədədir.

Qazanılan uğurların nəticəsi olaraq demək mümkündür ki, düşmənin döyüş ruhu tamam sarsılıb. Bunu aparılan müşahidələr deməyə əsas verir. Hər birimiz düşmənin üzərinə gedərək, ata-baba yurdlarımızı işğaldan azad etməyə can atırıq. Qeyd etmək istərdim ki, düşməndən azad olunmuş bir sıra strateji əhəmiyyətli yüksəkliklərimiz var. Bu yüksəkliklər hesabına düşmən üzərində üstünlüyümüz daha da artıb. Ən əsası indi o yerlərdə üçrəngli bayrağımız dalğalanır. Dalğalanan bayrağımız şəhidlərimizin qisasının alındığına işarədir, o bayraq əsgərimizin döyüş ruhundan və qələbə əzmindən xəbər verir. Bu döyüşlər bir daha göstərdi ki, Azərbaycan xalqı öz Ali Baş Komandanının rəhbərliyi ilə heç vaxt işğalla barışmayacaq. Artıq xalqımızın çoxdan arzusunda olduğu qələbəni Azərbaycan əsgəri təmin edir. Azərbaycan əsgəri "Xalqa məhəbbət, düşmənə nifrət" devizi ilə düşmənin cavabını verməkdədir. Bu mübarizə ölkəmizin haqq mübarizəsidir. Bu mübarizə Böyük Qələbəni xalqa bəxş etmək üçün aparılan mübarizədir. Bu mübarizə tarixi ədalətin qorunmasını, xeyirin şər üzərində qələbəsini təmin edən mübarizədir. Tezliklə xalqımıza, Ali Baş Komandanımıza Böyük Qələbənin sevincini bəxş edəcəyik.



**Əsgər İslam Babayev:**
- Ordu sıralarında xidmətə başlayan gündən silahların sirlərinə dərindən yiyələnirdim. Müntəzəm olaraq keçirilən təlimlərdə döyüş təcrübəmizi artırırdıq. Əsgər dostlarımla qarşıdakı döyüşlərə hazırlaşırdıq. Bilirdik ki, düşmən istənilən vaxt atəşkəsi pozub üstümüzə hücum çəkə bilər. Çalışırdıq ki, hazırlığımız həmişə yüksək səviyyədə olsun. Əgər torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər başlayarsa, düşməni tez bir zamanda məhv edib, qələbə qazanaq. Uğurlu döyüşlər göstərdi ki, biz qəsbkarlardan qat-qat üstünük. Ard-arda işğalçılara sarsıdıcı zərbələr vururuq. Bu zərbələrə dözə bilməyən yağılar mövqelərini, silah-sursatlarını və döyüş texnikalarını atıb qaçırlar. Müharibə başlanan gündən erməni qəsbkarlarının onlarla tankını, döyüş texnikasını, silah anbarını ələ keçirmişik. Əvvəllər ermənilər özlərini çox tərifləyirdilər. Amma döyüşlər zamanı məlum oldu ki, onların orduları haqqında dedikləri başdan-ayağa yalandır. Əks-həmlə əməliyyatı üstünlüyümüzlə davam edir. Əminəm ki, yaxın günlərdə döyüşlər Böyük Qələbəmizlə yekunlaşacaq. İşğalda olan bölgələrimizin hamısında bayrağımız dalğalanacaq. O günü xalqımız böyük sevinclə qeyd edəcək.

*Vətən müharibəsindən reportaj*

# “Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir”



## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.*



Artıq payızdı... Ancaq bu payız digər payızlara bənzəmir. Bu payız ölkəmizə sevinc dolu hisslərlə qədəm qoyub, sanki xalqımıza bir bəşərilik aşılayıb. Elə bil bu payızın mahiyyəti fərqlidir. Azərbaycanda bu il payızın küləyindən, yağışından, dolusundan, qarından, göy gurultusundan, şimşəyindən, ... əsər-əlamət yoxdur. Ölkəmizin hər bir guşəsinə Qarabağdan Günəş doğub, Qalibiyyət günəşi. Onun istiliyi qəlblərə hərarət gətirib. Bu payızda xalqımıza istilik bəxş edən, sevinc hissi yaşadan qüvvə Azərbaycan Ordusudur. Azərbaycan Ordusunun şəxsi heyətinin Qələbə sevincinə şərik olmaq məqsədilə yolumuz Qarabağa, əks-həmlə əməliyyatının getdiyi ön xəttədir.

Qarabağ payızda da gözəldir. Təbiət füsunkarlığını hər addımda hiss etdirir. Bu füsunkarlığı yol boyu uşaqların əllərində, maşınların və binaların üstündə seyr etdiyimiz Azərbaycan bayrağının dalğalarında daha fəxarətlə hiss edirik; Azərbaycan səmasında dalğalanan üçrəngli müqəddəs bayrağımız ordumuzun şəxsi heyətini torpaqlarımızın azadlığı yolunda mətin olmağa hazırlayır.

Külək əsir... Payız küləyi... Bu küləyi sinəmə çəkmək istəyirəm ki, Qarabağın ətrini tez duyam. Küləkdən oğullarımızı xəbər almaq istəyirəm. Yellənən budaqları və sehrli səsləri çağırmaq, öz səsimə qarışdırmaq istəyirəm... Payız küləyinin səsi Qarabağ nəğmələrinə, igid oğullarımızın nərəsinə, Azərbaycan əsgərinin əzəmətli addım səslərinə qarışıb sanki... Getdikcə bu səslər daha aydın və gur eşidilir.

Qəlbimə gözəl duyğular bəxş edən qeyri-adi düşüncələrdən ayrılanda artıq döyüş meydanında idim.

Tarix yazan oğullarımızdan zabit Arzu Allahverdiyev bildirir ki, Qarabağımızın "Qızıl payızı" tariximizin səhifələrinə qızıl hərflərlə yazılır. "Qarabağımıza qovuşacağımız gün indi çox da uzaqda deyil, çünki hər keçən gün bizi Böyük Qələbəyə doğru aparır. Belə bir deyim var: Vətən sərhəddən, döyüş səngərdən başlayır. Artıq səngərlərdən başlayan döyüş torpaqlarımızın azad olunması ilə yekunlaşmaq üzrədir. Sərhədlərimiz əsgərlərimizin intizarındadı, əsgərlərimiz də sərhədlərimizin. Şəhidlərimizin ruhunun şad olması naminə addım-addım irəliləyirik. Qarabağın dağlarını, dərələrini, çöllərini, bulaqlarını, ... qucaqlamaq arzusu ilə döyüşürük. Qarabağımızdan düşmənin ayağını kəsmək məqsədilə qanımızı və canımızı əsirgəmirik".

"Şəxsi heyətimiz düşmənə qarşı çətin dağlıq şəraitdə mübarizə aparsa da, əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq torpaqlarımızı işğaldan azad edirlər", - deyə zabit sözünə davam edir. - Düşmən artıq Azərbaycan Ordusunun qarşısında gücsüz olduğunu görür. Əsgərlərimizin hər biri qəhrəmanlıq mücəssiməsidir. Şəxsi heyət elə böyük ruh yüksəkliyinə və döyüş əzminə malikdir ki, onun qarşısında hər hansı bir qüvvə dayana bilməz. Azərbaycan Ordusunun son günlərdə həyata keçirdiyi əks-hücum əməliyyatı şəxsi heyəti daha da ruhlandırır və bu əməliyyatın Böyük Qələbə ilə nəticələnəcəyinə sayılı günlər qalır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ülvi Əşrəfli qeyd edir ki, hər bir Azərbaycan əsgəri Qarabağı nə vaxtsa qayıdacaq torpaq yox, həm



də şanlı tarixə malik olan keçmişimizin bir parçası, canımızdan ayrılmış bir parça kimi anladığından döyüşdən-döyüşə qalibiyyət qazanır. Ona görə də bizlər tarixi torpaqlarımıza qovuşmaq üçün canımız, qanımız bahasına olsa belə döyüşürük. Gözü yaşlı qalmış anaların, bacıların, yandırılan körpələrin qisasını almaq üçün döyüşərək Azərbaycan əsgəri kimi tarix yazmaq hər birimizin borcudur. Ən böyük arzumuz qələbədi, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. İnanırıq ki, hazırlıqlı Azərbaycan əsgəri kimi həmin şad günü həsrətlə gözləyən xalqımıza Qələbə sevincini bəxş edəcək, Qarabağ həsrətinə son qoyacağıq.

"Bu gün Azərbaycan əsgərinin arzusu xalqımıza Qələbə bəxş etməkdi", - deyə əsgər Mehdi Əsgərov söhbətə qoşulur. - Unutmuruq ki, düşmənlər hələ meydandadı... Unutmuruq ki, ermənilər xalqımıza qarşı hansı faciələri törədib... Ancaq düşmən də unutmamalıdır ki, Azərbaycan Ordusu istənilən hücumun qarşısını almağa, qəsbkara layiqli cavab verməyə qadir ordudu. Artıq bu döyüşlərdən sonra ermənilər ordumuzun nəyə qadir olduğunu unutmayacaq. Döyüşlərdə ermənilərin formalaşdırdığı "məğlubedilməz mifi" qısa bir zaman ərzində məhv edildi. Düşmən döyüş texnikalarını, silah-sursatlarını, meyitlərini, yaralı əsgər yoldaşlarını meydanda qoyub qaçırdı.

Əsgər İsmayıl Almasov qeyd edir ki, bizim vəzifəmiz Vətənimizə keşik çəkmək və istənilən hərbi tapşırığı layiqincə yerinə yetirməkdir: "Bu gün bizim üzərimizə torpaqlarımızı işğaldan azad etmək kimi böyük vəzifə düşüb. Sentyabrın 27-dən başlanan missiyanın öhdəsindən layiqincə gəlirik. Həmin vəzifənin məsuliyyətli olduğunu yaxşı dərk edirik. Arxamızda güclü dövlətin durduğunu hiss etdikcə daha mübariz olur, torpaqlarımızın işğaldan daha tez azad edilməsi arzusu ilə alışıb yanırıq. Bütün əsgərlərimiz sevinirlər ki, torpaqlarımızın düşməndən azad edilməsində onların da payı olacaq."

Əsgər Qəzənfər Məmmədli isə vurğulayır ki, Vətən torpağından təcavüzkar düşmənin ayağı kəsilməli, ondan sonra bu torpaqlar etibarlı, ayıq-sayıqlıqla qorunmalıdır. “Bu yolda istənilən məhrumiyyətlərə sinə gərmək vətəndaşlıq borcumuzdu. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün maddi-texniki bazaya malik olan ordunun olması və şəxsi heyətin hərbi təcrübəsinin artması əsas şərtdir fikri bu gün özünü döyüş meydanında doğruldur. Bizim bundan başqa yolumuz yox idi. 30 ildir münaqişənin sülh yolu ilə həlli yolunun axtarılmasına baxmayaraq status-kvo dəyişmirdi. Ali Baş Komandanımız sübut etdi ki, sülh yolu ilə həll olunmayan münaqişə döyüş yolu ilə həllini tapa və mövcud status-kvo aradan qalxa bilər. Ölkə başçımızın da qeyd etdiyi kimi, artıq nə status-kvo var, nə də təmas xətti. Biz xətti sərhəddə çəkəcəyik. Bir vətəndaş kimi, bir hərbi qulluqçu kimi xalqımızın, dövlətimizin, Ali Baş Komandanımızın qarşısında bir şərəf borcumuz var və biz onu döyüş meydanında qürurla yerinə yetiririk. Üç şəhərimiz, iki qəsəbəmiz, onlarla yaşayış məntəqələrimiz artıq işğaldan azad edilib. Bu hələ son deyil. Son bütövlükdə Qarabağ işğaldan azad olunduqdan sonra bitəcək. Böyük Mustafa Kamal Atatürk gözəl deyib: "Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir... Çünki tarixi yazan öz millətinə qəhrəmanlıq tarixini yenidən yaşadır!.." Qəhrəmanlıq tariximizi xalqımıza yenidən yaşadanların sırasında olduğumuza görə qürurluyuq!"



**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Vətən müharibəsindən reportaj*

# Döyüşlər qələbə ilə başa çatacaq!



*Gördüyümüz bu qürurverici mənzərələr bizdə yüksək ovqat yaradır. Diqqətlə fikir verəndə hiss olunur ki, ehtiyatdan çağırılan zabit və əsgərlər hər an döyüşə atılmağa, dərin nifrət bəslədikləri düşməni məğlubiyyətə uğratmağa, torpaqlarımızı erməni işğalçılarından azad etməyə tələsirlər.*

Vətənin müdafiəsinə çağırılan baş leytenant Elvin Məmmədov ordu sıralarından 2014-cü ildə ehtiyata buraxılıb. Yurdumuzun işğaldan azad edilməsi uğrunda müharibə başlanan kimi yenidən xidmətə çağırılıb. Gənc zabit Elvin Məmmədov söhbətinə gözəl bir ovqatla başladı:

- Bu gün Vətən bizi döyüşlərə çağırıb. Çağırıb ki, illərdən bəri erməni qəsbkarlarının işğalında olan torpaqlarımızı azad edək. Biz də Vətənin çağırışına səs verərək yurdumuzu yağılardan azad etməyə gəlmişik. Ordu həyatından beş-altı il əvvəl ayrılsam da, döyüş təcrübəm, hərbi biliklərim əvvəlki səviyyədədir. Biz gücümüzlə, bacarığımızla işğalçılara dərs verəcək, yurdu-



muzu yağılardan azad edəcəyik. Bir zabit kimi istəyirəm ki, müharibəni Böyük Qələbəyədək davam etdirək, torpaqlarımızı son qarışınadək işğalçılardan təmizləyək, müharibəni, qan-qadanı gələcək nəsillərə saxlamayaq. Övladlarımıza səmasında sülh göyərçinləri qanad çalan dinc bir dünya bəxş edək. Nəyin bahasına olursa-olsun, biz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə düşməni məhv edib Qələbə qazanacağıq. Xalqımıza yalnız və yalnız Qələbə müjdələri verəcəyik.

Vətənin çağırışına səs verərək döyüşə gələn kapitan Azər Məsmalıyev, baş leytenant Asim Tofiqi, leytenant Anar Məmmədov, əsgərlərdən Məmmədəli Səmədov, Hüseynxan Quliyev və başqaları da Qarabağın düşməndən azad edilməsi naminə cəsarətlə, hünərlə vuruşacaqlarını deyirlər. Biz isə onlara uğurlarla, qələbələrlə dolu günlər arzuladıq.

İllərdən bəri ordumuzun həm uğurlu döyüşlərini, həm də qalibiyyətini görmək arzusu ilə yaşayırıq. Nəhayət, həmin günü, həmin anı görmək bizə nəsib oldu. Bu gün Azərbaycan Ordusu bütün cəbhə boyu erməni qəsbkarlarının mövqelərini sərrast atəş zərbələri ilə darmadağın edir, yaşayış məntəqələrimiz bir-bir işğaldan azad olunur. Yağılar şanlı ordumuzun gücü, qüdrəti qarşısında dayana bilməyərək əsgərlərimizin güllələrindən qorunmaq üçün Qarabağın dərinliklərinə çəkilir. İyirmi səkkiz ildir ki, işğalda qalan torpaqlarımızda bu gün Azərbaycan əsgərinin addım səsləri eşidilir. Bundan torpaq da sevinir, əsgər də, uzun illər doğma ocaqlarına həsrət qalan insanlar da!

Ağır döyüşlər gedən cəbhə bölgələrindən uğurlu xəbərlər gəlir. Hər gün ordumuzun hissələri tərəfindən döyüş meydanlarında düşmənin yüzlərlə canlı qüvvəsi məhv edilir, onlarla hərbi texnikasının külü göyə sovrulur. Ordumuzun cəsur zabit və əsgərləri Qarabağ uğrunda gedən qanlı döyüşlərdə yağılara sarsıdıcı zərbələr vururlar. Düşmən uzun illər dayandığı mövqeləri qoyub geriyə - üzü Ermənistana tərəf qaçır. Uğurlu döyüşlər addım-addım bizi Böyük Qələbəyə yaxınlaşdırır. Erməni qəsbkarlarının döyüş texnikaları, silah-sursat anbarları dəqiq atəş zərbələri ilə məhv edilir.

Qarabağ uğrunda gedən döyüşlərdə ordumuzun uğurlarını eşitdikcə ürəyimiz açılır, üzümüz gülür, qəlbimiz cuşə gəlir. İndi xalqımız ordusundan yalnız və yalnız qələbə müjdələri eşidir. İnanırıq ki, bu xəbərlər davamlı olacaq, işğalçılar son nəfərinədək məhv ediləcək. Azərbaycan Ordusu 28 il erməni işğalçılarının, erməni terrorçularının işğal etdiyi Qarabağa sülh və əmin-amanlıq gətirəcək.

Qarabağ uğrunda qanlı savaş başlayar-başlamaz uğurlu döyüşləri ilə xalqımıza böyük sevinc yaşadan zabit və əsgərlərlə görüşmək üçün cəbhə bölgəsinə gəlmişik. Ordumuzun uğurlarından doğan sevincimizi cəsur oğullarımızla bölüşməkdən ötrü səngərlərə, mövqelərə tez çatmağa çalışırıq. Biz nə qədər tələssək də, yollar uzandıqca uzanır, sanki bitib-tükənmək istəmir. Bəzən sərt yoxuşlara qalxır, bəzənsə dərin aşırımlardan enirik. Nə yoxuşlar, nə də aşırımlar bizi qorxutmur.

Sentyabrın 27-dən düşmənə sarsıdıcı zərbələr vuran, onları ağır məğlubiyyətə uğradan, uğurları, zəfərləri ilə xalqımıza sevinc bəxş edən zabit və əsgərlərin yanına qaranlıq düşməyə az qalmış çatırıq. Sanki günəş də işığını, istisini bizdən əsirgəməmək üçün ayağını sürüyüb bir az ləngiyir, gec batmaq istəyir...

Ön xətdə böyük canlanma hiss olunur. Başı dumanlı dağların arxasından atəş səsləri eşidilir. Bu atəş səsləri uzaqlarda əks-səda verib daha da gurlaşır. Gurlaşdıqca da, düşməni qorxuya salır, vahimələndirir.

Dağlar qoynunda mövqe tutan elə dağlar kimi vüqarlı, qayalar kimi əzəmətli zabit və əsgərlərimiz döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərirlər. Düşmən onların güclü əkshəmlələrinin qarşısında dayana bilməyərək mövqelərini, silah-sursatlarını, döyüş texnikalarını qoyub qaçır. İllərdən bəri işğal olunan torpaqlarımız addım-addım erməni qəsbkarlarından azad edilir. Yurdumuzun azadlığı uğrunda gedən



döyüşlərdə böyük cəsarət, hünər göstərən zabit və əsgərlərlə söhbət etdikcə sevincimiz sevincə qarışır. Üzümüz gülür, qəlbimiz açılır. Tarix yazan bu oğullar iştirakçısı olduqları döyüşlərdən həvəslə söz açırlar, Vətən uğrunda gedən savaşın gərgin anlarından ürəkdolusu danışırlar.

Əks-həmlə əməliyyatlarında fərqlənənlərdən biri də əsgər Süleyman Kazımovdur. Silahını qürurla sinəsinə sıxan əsgərin qazandığı qələbədən üzü gülür. Hiss olunur ki, bu anlarda onun ürəyində, qəlbində sevinc dolaşır. Əsgər Süleyman Kazımov iştirakçısı olduğu döyüşlərdən söz salaraq deyir ki, şəxsi heyət səhər ertədən "Həyəcan" çağırışı ilə ayağa qaldırıldı. "Məlum oldu ki, erməni qəsbkarları qəflətən mövqelərimiz üzərinə hücuma keçiblər. Vaxt itirmədən yurdumuzun müdafiəsinə atıldıq. Bir an içində gərgin döyüşlər başladı, gurlayan atəş səsləri yeri-göyü lərzəyə gətirdi. Komandanlıq tərəfindən verilən əmr və tapşırıqları yerinə yetirərək düşmənin hücumunu dəf etməyə başladıq. Döyüş nə qədər gərgin və təhlükəli olsa da, sərrast atəşlə düşməni məhv edirdik. Şəxsi heyətimiz qısa zaman ərzində qəsbkarların hücumlarının qarşısını aldı. Atəşimiz dayanmadan gurladıqca işğalçıların mövqeləri darmadağın olurdu. Zabit və əsgərlərimiz güllələri yağıların üstünə dolu kimi yağdırırdı. Bir azdan komandir işğalçıların mövqelərinə doğru irəliləməyi əmr etdi. Ətrafa diqqət kəsilə-kəsilə irəliləməyə başladıq. Qəflətən qəsbkarların gözləmədikləri istiqamətdən üzərlərinə hücum etdik. Bir göz qırpımında yağıların başının üstünü aldıq. Düşmən güclü əks-həmlələrimizdən qorxaraq hara gəldi qaçırdı. Daşnakların mövqelərində xeyli sayda silah-sursat və meyit qalmışdı. Ermənilər əvvəllər özlərini çox tərifləyərək guya ki, güclü olduqlarını deyirdilər. Amma uğurlu döyüşlərimiz göstərdi ki, işğalçılar çox gücsüzdülər. Gücsüzlər isə heç vaxt döyüş meydanlarından qalib ayrıla bilməzlər. Döyüşdə, savaşda, mübarizədə yalnız və yalnız güclülər qalib gəlir. Güclü tərəf isə Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir. Deməli, döyüşlərdə Qələbə bizimdir. Erməni quldurları məhvə məhkumdurlar, çünki işğalçıdırlar, terrorçudurlar. Belə mənfurları isə yalnız məğlubiyyət gözləyir. Biz əsgərlər bundan sonra da içdiyimiz Hərbi anda sadiq qalacaq, ölkəmizin ərazi bütövlüyü uğrunda cəsarət və hünərlə vuruşacağıq! Nəyin bahasına olursa-olsun, erməni işğalında olan torpaqlarımızı azad edəcəyik".

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərən zabitlərimizdən biri də Hüseyn Muradovdur. Əməliyyatdan yenicə qayıdan gənc zabitin üzü gülür. Onunla söhbətimiz çox maraqlı keçir. Gənc zabit deyir ki, erməni qəsbkarlarının qəfil həmləsi qısa müddət ərzində dəf edildi. "Torpaqlarımızı işğalda saxlayan yağıları məhv etmək üçün vaxt itirmədən mövqeləri üzərinə əks-hücuma keçdik. İlk dəqiqələrdə qəsbkarlar müqavimət göstərsələr də, sonra qarşımızda dayana bilmədilər, getdikcə müqavimətləri zəiflədi. Hiss olunurdu ki, qüvvələri tükənir, silah-sursatları azalır. Qələbəyə, zəfərə hesablanan əks-hücumumuzu davam etdirərək düşməni tutduğu mövqelərindən qovub çıxartdıq. Elə ilk döyüşdəcə qəsbkarların qüvvələrini darmadağın etdik. İki yüzdən çox canlı qüvvəsini, 2 zirehli texnikasını, şəxsi heyətlə və silah-sursatla dolu olan 3 avtomobilini itirən düşmən geri çəkilməyə məcbur oldu. Əks-hücumlarla başlanan bu döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir və məğlubedilməzdir. Düşmən mövqelərini nə qədər möhkəmlətsə də, qazmalarını nə qədər dərin qazsa da, betonu qalın töksə də, güllələrimizdən yayına bilmədi. Gərgin gedən ilk döyüş qələbəmizlə başa çatdı. Erməni qəsbkarları illərdən bəri idi ki, bu mövqelərdə möhkəmlənmişdilər. Uzun müddət davam edən işğala bu cür uğurlu döyüşlərimizlə son qoyacağıq. Yağıları təkcə bu mövqelərindən deyil, bütövlükdə Qarabağdan, ölkəmizin işğal olunmuş ərazilərindən vurub çıxaracağıq. Bizim mülki əhali ilə heç bir işimiz yoxdur, onlara güllə atmırıq. Biz torpaqlarımızı yalnız erməni işğalçılarından təmizləyirik. Döyüşlər davam etdikcə uğurlarımız, zəfərlərimiz də artır. Kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər torpaqlarımız işğaldan azad edilir. Qazanılan uğur və zəfərlər Vətən müdafiəçilərinin Qələbə



əzmini daha da yüksəldir. Döyüşçülərimiz işğaldan bir-birinin ardınca azad edilən kənd və qəsəbələrdə, şəhərlərdə üçrəngli bayrağımızı dalğalandırırlar. Əminliklə deyə bilərəm ki, yaxın vaxtlarda bayrağımızı Şuşanın, Xankəndinin ən uca zirvələrindən asacağıq."

Söhbətimiz zamanı onu da öyrəndik ki, gənc zabit Hüseyn Muradov Aprel döyüşlərinin qəhrəmanlarından biri olub. Ordumuz üçün uğurla başa çatan həmin döyüşlərdə düşmənin bir neçə mövqeyinin darmadağın edilməsində iştirak edib. Gülləri silahının hədəfinə tuş gələn erməni işğalçılarının üzərinə cəsarət və hünərlə yağdırıb, döyüşlərdən qalib çıxıb. Zabit Hüseyn Muradov bugünkü döyüşlərin də qalibidir. İnanırıq ki, gənc zabit hünəri və cəsarəti ilə sabahkı döyüşlərin də qalibi olacaq.

Zabit Hüseyn Muradov iki övlad atasıdır. Vətən üçün iki oğul böyüdür. Bu oğullar atalarının igidliyi və qəhrəmanlığı ilə həmişə fəxr edəcəklər. Bu, onların mənəvi haqqıdır. Gənc zabitlə xalqımız fəxr edir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

# Ordumuzla fəxr edirik



Gözümüzü açandan bəri ana və nənələrimizin insansevərlik, humanizm dolu laylaları, nağılları ilə böyümüşük. Anlamışıq ki, mübarizəni ancaq şər qüvvələrə qarşı aparmaq lazımdır. Hər zaman nağıllarımızın sonu xeyrin şərə, haqqın nahaqqa qələbəsi ilə başa çatıb. Qocaya, uşağa, qadına hörmət milli mədəniyyətimizin əsasını təşkil edib. Böyüdükcə qəhrəmanlıq dastanlarımızın sehrinə düşmüşük. Öyrənmişik ki, döyüş meydanına ər kimi girərlər. Hiylə, terror, anti-humanist meyillilik bizim milli ruhumuza yaddır.

Ermənilərin hələ illər öncə törətdiyi Mart soyqırımı, illər sonra təkrarladığı Xocalı soyqırımı və yaxın günlərdə törətdiyi Gəncə soyqırımı bəşəriyyətə, insanlığa qarşı törədilən ən ağır və ən böyük cinayətdir. Gəncə şəhərinin bombardman edilməsi nəticəsində mülki vətəndaşların həlak olması və yaralanması erməni faşizminin daha bir təzahürüdür. Səbəb və məqsədlər isə bəllidir: Azərbaycan Ordusunun gücü qarşısında tab gətirməyərək məkrli plana əl atmaq və əhalidə ordusuna qarşı inamsızlıq yaratmaq. Gəncə, Mingəçevir, Xızı, Qəbələ, Kürdəmir və digər yaşayış məntəqələrimizin məhz Ermənistan ərazisindən atəşə tutulması müharibə qanunlarına ziddir.

Hətta oktyabrın 15-də dünyasını dəyişən Tərtər rayon sakini dəfn edilərkən Ermənistan silahlı qüvvələri mərasim iştirakçılarını ağır artilleriya atəşinə tutub...

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin də verdiyi məlumatda göstərilir ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi hədəf və maraqları yoxdur. Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu heç bir mülki infrastruktura və qeyri-hərbi hədəfə atəş açmır.

Azərbaycan Ordusu müharibə zonasında, döyüş meydanında haqlı mübarizəsini aparır və öz torpağını işğalçılardan təmizləyir.

NUHÇIXAN İnformasiya Agentliyi erməni KİV-lərinə istinadən xəbər verir ki, ölkənin Milli Təhlükəsizlik Xidmətinin xüsusi təyinatlı qüvvələri Dağlıq Qarabağa cəbhə bölgəsinə yollanmaqdan imtina edib. Nəticədə yüzlərlə şəxsə cinayət işi açılıb, həbs olunanlar, işgəncəyə məruz qalanlar olub. Cəbhə bölgəsində ard-arda itkilər verən Ermənistan artıq döyüşlərə birinci Qarabağ müharibəsinin iştirakçıları olan "qocalar"ı cəlb edir...

İddiaları imkanlarını üstələyən Paşinyanın hədəfindən, əslində, işğalda saxlamaq istədiyi torpaqlar çoxdan çıxıb, çünki hər gün Azərbaycan Ordusu irəliləyir və bu reallığı özü də görür. Məntiqlə düşünəndə görünən tərəf odur ki, o öz xalqını məqsədsiz və haqsız iddialarının hədəfinə çevirib. Ermənistan hökuməti Qarabağda üç həftədən çox davam edən döyüş əməliyyatları nəticəsində çoxlu sayda canlı qüvvə itirdikdən sonra qadınlar bir yana, indi də uşaqları döyüşlərə cəlb etməyə başlayıb. Çoxsaylı hərbi cinayət faktlarına imza atan Ermənistan hökuməti bununla da çarəsiz durumda olduğunu sərgiləyir.

Döyüş əməliyyatları başlayandan Ermənistanın ordu sıralarında saysız-hesabsız fərari aşkar edilib. Azərbaycanın ordu sıralarına isə minlərlə könüllü yazılır. Hər kəs müqəddəs torpaqlarının işğaldan azad edilməsi prosesində iştirak etmək və o torpaqlara bayraq sancmağın qürurunu yaşamaq istəyir. Çünki bu, hər bir azərbaycanlının haqqıdır. Bu günə qədər hələ ayağı Qarabağa dəyməyən və əslən Azərbaycanın başqa bölgəsindən olan hər bir gəncin mənəvi haqqıdır. Bu haqqın qarşısında heç bir qüvvə dayana bilməz. Azərbaycan xalqı ordusunun yanındadır. Xalq-ordu birliyi haqq işini daha da sürətləndirir və əsgərlərimizə mübarizə əzmi verir.

XIX əsr ədəbiyyatının öndə gələn isimlərindən olan Mir Həmzə Seyid Nigari Qarabağı belə vəsf edib: "İşıqlı, fərəhlə parlayan ölkə, əgər dünya cənnətdirsə, o cənnətdən də gözəl".

"Ermənilər bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını səkkiz aya qurduq. İndi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bütün o torpaqları biz cənnətə çevirməliyik. O torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq". Prezident İlham Əliyev bu fikirləri Türkiyənin "Haber Global" telekanalına müsahibəsində bildirib.

Bəli, düşmənin murdar ayağını əcdadlarımızdan miras qalan torpaqlardan təmizləyib üçrəngli bayrağımızı dalğalandıran əsgər o torpaqlara yenidən ruh verir. Ölkə başçısı isə artıq o bölgələrin inkişaf planları üzərində işlənməsi ilə bağlı müvafiq göstərişlər verib. Azərbaycanın paytaxtı Bakı şəhərindən tutmuş digər bölgələrinin mövcud inkişafı işğaldan azad olunan kənd, şəhər və qəsəbələrimizi də əhatə edəcək, torpaq əsl sahiblərinə əmanət olunacaq. O gün uzaqda deyil...

Aldığımız hər qələbə xəbəri ürəyimizə fərəh, gözlərimizə işıq verir. Həm sevinir, həm həyəcanlanır, həm də ordumuzla fəxr edirik. Belə bir ölkənin vətəndaşları olmaqdan qürur duyuruq. Dünyada sülhün, ədalətin, tolerantlığın, humanistliyin ən bariz nümunəsi olan Prezidentimizi dərin minnətdarlıq hissi ilə dəstəkləyirik. Azərbaycan Prezidenti İlham Əliyevin "Twitter" hesabından tez-tez şad xəbərlər alırıq.

Eşq olsun, Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# "Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru sıradan çıxarılıb"

*Cəbrayıl istiqamətində gedən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusu tərəfindən görülən tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru məhv edilib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, müqavilə əsasında xidmət edən təqribən 400 hərbi qulluqçudan ibarət taborun şəxsi heyətinin əksəriyyəti sıradan çıxarılıb. Hərbi hissə yenidən komplektləşdirilməsi üçün Ermənistanın Ararat şəhərinə qayıdıb.

Məlum olub ki, alay komandiri qalan şəxsi heyəti yenidən döyüşə göndərməkdən imtina etdiyinə görə tutduğu vəzifədən azad edilib. Hərbi qulluqçuların çoxu döyüşə getməkdən imtina etdikləri üçün cinayət məsuliyyətinə cəlb olunub.

*Redaksiyamızın poçtundan*

# Sevinirəm ki, azərbaycanlıyam, Azərbaycanda yaşayıram

*Düşünürdüm ki, Vətən müharibəsində yaxından iştirak etmək bir qız üçün heç də asan olmaz. Bir az qorxu, bir az sevinc və tərəddüd hissi keçirirdim. Lakin gördüklərimi, eşitdiklərimi və hiss etdiklərimi tərəddüdlərim sovuşdurdu.*

Füzuli rayonuna yola düşdüm. Həmişəki kimi öz "Kamaz"ımızla. "Kamaz"ın pəncərəsi balacadır. Həyat, dünya oradan çox balaca görünür. Əslində, dünyanın böyük olduğunu "Kamaz"dan düşəndə hiss edirsən.

Sentyabrın 27-dən bu günə kimi o pəncərə mənə çox şeyi göstərdi - xalqımın necə vətənpərvər olduğunu, ümidli gözləri, ürəyi əsgərlərin yanında olan anaların dualarını.

Azərbaycan Ordusu qələbələr qazanır. Hadrut, Suqovuşan, Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri azad edilib. Yaxın vaxtlarda işğal olunmuş bütün torpaqlarımız azad olunacaq.

Şəhərlərin görkəmi qəlbimi qana döndərsə də, orada bayrağımızın dalğalandığını görəndə könlüm telləndi, qürurlandım, sevincdən göz yaşlarım yanaqlarıma axdı.

Əsgərlərimizin baxışlarında qədərsiz qələbə ruhu gördüm. Bu ruhu əsgərlərimizin döyüş bayrağı bildim. Bu bayraq döyüşləri qələbə ilə başa çatdıracaq. Azərbaycan Ordusu Ali Baş Komandanın əmrini - işğal olunmuş torpaqlarımızın azad edilməsi əmrini Böyük Qələbəylə tamamlayacaq...

Əsgər əlindəki bayrağı yerə qoymurdu. Bu, diqqətimizdən yayınmırdı. Niyəsini soruşdum.

"Mənim bayrağım hər zaman yüksəkdə dayanmalıdır", - deyə cavab verdi. Bu cavabdan qürurlandım.

Bizim xalq kimi möhtəşəm xalq yoxdur. Bunu anlamaq, duymaq böyük xoşbəxtlik və sevincdir. Sevinirəm ki, azərbaycanlıyam, Azərbaycanda böyümüşəm, Azərbaycanda yaşayıram.

**Şəbnur ALLAHVERDİLİ**

# Döyüşlərdə iştirak edən şəxsi heyət üçün "Əsgərə məktub" layihəsi keçirilib







Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüşlərdə iştirak edən hərbi qulluqçuların döyüş əzminin daha da artırılması məqsədilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təbliğat və təşviqat kampaniyası çərçivəsində "Əsgərə məktub" layihəsi həyata keçirilib.

Döyüşlərdə iştirak edən şəxsi heyətə ünvanlanan məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaradır və onlar tərəfindən sevinclə qarşılanır.

Hərbi qulluqçular da öz növbəsində xalq-ordu birliyinin təntənəsi olan ordumuza dəstək kampaniyasında iştirak edənlərə təşəkkürlərini çatdırır.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 647 Nüsxə 4000 |